


## Yaşıl dünya naminə həmrəy olaq!

*COP iqlim dəyişmələri ilə mübarizə üçün qlobal səylərin gücləndirilməsi və hər bir ölkənin öz töhfəsini verməsi baxımından mühüm əhəmiyyət kəsb edən konfransdır. Bu konfransda dünya liderləri, alimlər və mütəxəssislər bir araya gələrək, iqlim dəyişmələri ilə bağlı mövcud problemləri müzakirə edir, yeni həll yolları axtarır və gələcək üçün konkret tədbirlər planı hazırlayırlar. Eyni zamanda, konfrans Paris İqlim Sazişinin hədəflərinə nail olmaq üçün atılan addımların nəzərdən keçirilməsi və yeni məqsədlərin müəyyən edilməsi baxımından da vacibdir.*

*COP - İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyası insanın iqlim mühitinə təhlükəli müdaxiləsinin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP (Conference of Parties) abreviaturunun ingilis dilindən tərcüməsi Tərəflər Konfransı deməkdir. Tərəflərin Konfransı İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının icrasına nəzarət edən ali qərarverici orqandır. Bu Konvensiyaya üzv olan 190-dan çox ölkə var.*

*Ötən il dekabrın 11-də Dubayda COP28-in plenar iclasında COP29-un bu il Azərbaycanda keçirilməsi haqqında qərar qəbul olunub.*

**COP29**
**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası**



# COP29 və Azərbaycanın iqlim dəyişmələrinə verdiyi töhfələr

Azərbaycan COP29-a ev sahibliyi etməklə qlobal iqlim dəyişmələri ilə mübarizəyə öz töhfəsini vermək niyyətini bildirir. Belə ki, ölkəmiz iqlim dəyişmələrinin təsirini azaltmaq və dayanıqlı inkişafı təmin etmək üçün bir sıra tədbirlər həyata keçirir. COP29 çərçivəsində Azərbaycan nümayəndə heyəti milli iqlim strategiyaları və layihələri haqqında məlumat verəcək, eyni zamanda qlobal səviyyədə qəbul edilən qərarları dəstəkləyəcək. İqlim dəyişmələri ilə bağlı yeni qlobal məqsədlərin müəyyən edilməsi və bu məqsədlərə çatmaq COP29-un son yenilikləri arasında yer alır. Azərbaycan bu yeniliklər çərçivəsində "yaşıl enerji" layihələri, meşələrin bərpası, su resurslarının idarə edilməsi, sənaye və nəqliyyat sektorunda islahatlar kimi bir çox təşəbbüslər irəli sürür.

Prezident İlham Əliyev tərəfindən prioritet olaraq irəli sürülən "yaşıl enerji" və bərpaolunan enerji mənbələrindən istifadəni artırmaq və səmərəliliyi yüksəltmək üçün bir sıra layihələr həyata keçirilir. Bu layihələr arasında günəş və külək enerjisi stansiyalarının tikintisi əsas yer tutur. Üç əsas enerji şirkəti ilə anlaşma memorandumu və müvafiq müqavilələr imzalanıb ki, onlara uyğun olaraq həm quruda, həm də dənizdə 25 qiqavat bərpaolunan günəş və külək enerjisi istehsal ediləcək.

Ölkəmizdə iqlim dəyişmələrinin təsirlərini azaltmaqla yanaşı, biomüxtəlifliyin qorunmasına töhfə vermək məqsədilə meşələrin bərpası və yeni yaşıllıqların salınması üzrə genişmiqyaslı layihələr icra olunur. Bu sahədə həyata keçirilən ardıcıl tədbirlər, görülən işlər ekologiya və ətraf mühitin mühafizəsi sahəsində uğurların əldə olunmasına zəmin yaradır. Ölkənin müxtəlif regionlarında meşə zolaqlarını genişləndirmək üçün yeni ağaclar əkilir ki, bu proses həm torpaqların eroziyadan qorunmasına, həm də meşə örtüyünün artırılmasına xidmət edir. Azərbaycanın bu sahədəki səyləri dayanıqlı inkişaf və ekoloji tarazlığın təmin edilməsi üçün atılan əhəmiyyətli addımlardır.

Həmçinin iqlim dəyişmələrinin su resurslarına təsirini azaltmaq üçün yeni su idarəetmə strategiyaları hazırlanır ki, bu da suyun səmərəli istifadəsi və qorunması məqsədi daşıyır. İqlim dəyişmələri əhali artımı və iqtisadi inkişaf kimi amillər su ehtiyatlarının idarə edilməsini daha vacib edir. Azərbaycanda Dayanıqlı Sosial-İqtisadi İnkişaf üzrə 2004-2018, 2018-2025-ci illəri əhatə edən Milli Proqram icra edilir. Proqramın bölmələrindən biri bütünlüklə su siyasəti məsələlərinə həsr olunub.

Qeyd edək ki, iyulun 30-da COP29-a hazırlıq çərçivəsində "Azərbaycanda yaşıl tikinti" üzrə dəyirmi masa keçirilib. Tədbirin əsas məqsədi yerli tikinti şirkətlərini, tikinti materialları istehsal edən müəssisələri, xarici şirkətləri və ekspertləri, həmçinin dövlət orqanlarının nümayəndələrini bir araya gətirməklə davamlı və sıfır karbonlu tikintiyə keçid üçün müzakirələrin aparılması və əməkdaşlıq platformasının yaradılmasıdır. Müzakirələrdə "yaşıl tikinti"nin qlobal iqlim hədəflərinə nail olmaqda oynadığı mühüm rol vurğulanıb. Bu, COP29-a gedən yolda əhəmiyyətli bir mərhələ kimi qiymətləndirilir.

Azərbaycanın təşəbbüsləri və həyata keçirdiyi layihələr ölkəmizin qlobal iqlim hədəflərinə nail olması üçün göstərdiyi səyləri əks etdirir. COP29-da isə gələcək nəsillərə daha təmiz və dayanıqlı bir dünya təmin etmək üçün mühüm addımlar atılacaq. Ölkə başçısı İlham Əliyev deyib: "Biz bütün ölkələrlə əməkdaşlığa hazırıq və bu bizim üçün də böyük bir təcrübə olacaq. Çünki yenə də hesab edirəm ki, bu, dünyanın bir nömrəli beynəlxalq tədbiridir, beynəlxalq konfransıdır, həmçinin dünya ictimaiyyətinin diqqəti nöqteyi-nəzərindən BMT Baş Assambleyasından da mötəbərdir".

**Röya RÜSTƏMLİ,**
**"Respublika".**